Bu kitabda bir milçəyin sürfə kimi dünyaya gəldiyi andan ölüm yatağına qədərki həyat hekayəti təsvir edilir. Bir milçəyin həyatı çox qısadır: cəmi 23 gün. Amma bu fanilik əsərin baş qəhrəmanına həyatdan zövq almağa mane olmur. O, milçəkdir, amma onun da həyata öz baxışı, öz sualları, öz düşüncələri var. Hər gün həyatı bir az da kəşf edir, qeyri-mümkün dostluqlar qurur və həyata daha həvəslə atılır. "Bir milçəyin tərcümeyi-halı" həyatın istənilən mərhələsində hamımızın necə tək və eyni zamanda birlikdə olduğu haqqında təsirli bir nağıldır.



## 23 GÜNÜN 1-Cİ GÜNÜ

Bu tarixçə hər yerdə başlaya bilərdi. Məsələn, magistral yol boyunca. Bədbəxt bir dovşan leşinin içində. Və ya həftəsonu bazarından sonra piştaxtanın üstündə atılıb qalan palçıqlı almada. Ancaq bu tarixçə burada başlayır. Tam olaraq burada. Bir heyvan nəcisində. Bu detala görə məni üzrlü sayın.





## 23 GÜNÜN 2-Cİ GÜNÜ

Biri var idi, biri yox idi, bir ana və bir ata var idi.

Təəssüf ki, ata bir bükülmüş məhəllə qəzeti ilə vurulan zərbə nəticəsində dünyasını dəyişdi. Onun qalıqları mətbəxin pəncərəsində krem rəngində bir iz buraxıb.

Dişi milçək özünün qısa ömründə minlərlə yumurta qoyur. Əslində o, yumurtaları qoymur, sadəcə, onları haradasa atıb gedir. Ana və bizim baş qəhrəmanımız qısa ömürləri boyunca bir neçə dəfə qarşılaşacaqlar, lakin qarşılaşarkən bir-birilərini heç vaxt tanımayacaqlar.





## 23 GÜNÜN 3-CÜ GÜNÜ

Onun sürfə[1] vaxtlarında günləri qaranlıq, nəm və yaddaşsız keçdi. Onda bir ağız və bir anus var idi. Beləliklə o, həmin yerini əmirdi… hər halda onun harada doğulduğunu bilirsiniz.

İlk günlərində o, varlığından xəbərsiz idi. Ta ki, o, sürfə vəziyyətində pupa[2] keçdi. Proses qəhvəyi pencəyin ona dar gələn anına qədər davam etdi. Dam açıldı və o, sürünərək tamamilə çölə çıxdı.

Bizim milçək.

Milçək heç nə öyrənmək məcburiyyətində deyil, o, artıq hər şeyi bilir. Milçək doğulmur, milçək ömrünün ortasında haradasa oyanır. Baxmayaraq ki, bu, onun ilk günüdür.

---

[1] Milçəklərin inkişaf mərhələsi
[2] Milçəklərin inkişafının növbəti mərhələsi